

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

11 noyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 43 (3556)

# AZƏRBAYCANIN ƏSRƏ BƏRABƏR ZƏFƏR GÜNÜ

## *Prezident İlham Əliyev: "Düşmən bilsin ki, dəmir yumruq hələ də yerindədir"*



Vətən müharibəsində qazanılan Zəfərin ilk ildönümü ölkəmizdə böyük təntənə ilə qeyd edildi. Bu ötən bir il ərzində quruculuq-bərpa işlərinə böyük yer ayıran Azərbaycan regionu əhatə edən infrastruktur layihələrinin təşəbbüskarı olmaqla yanaşı, dayanıqlı sülhün təməllərini də atmağa çalışıb.

İşağldan azad edilmiş torpaqlarımıza mütəmadi səfərlər edən Prezident İlham Əliyevin Qarabağa son səfəri də yalnız qələbənin birinci ilini qeyd etmək kimi protokol xarakterli deyildi, həm də səsləndirdiyi fikirlərin siyasi önəmi və aparılan genişmiqyaslı bərpa işlərinə töhfə sayılacaq infrastruktur layihələrinin gerçəkləşməsinin davamlılığı baxımından əhəmiyyətliydi.

Zəfər günündən bir gün öncə - noyabrın 7-də Şuşaya yola düşən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ermənilərin dağıdıb viran qoyduğu torpaqlarımızdakı maddi-mədəni abidələrimizin yenidən qurulması, dirçəldilməsi istiqamətində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak ediblər. Ardınca Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoyublar. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olan dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşüb, söhbət ediblər, Cıdır düzündə ağac əkiblər.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Şuşada olarkən Türkiyənin milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini də qəbul etməsi Şuşada Zəfər Günü ilə bağlı möhtəşəm atəşfəşanlığı həsrətlə izləyən ermənilərə həm də siyasi - hərbi mesaj oldu. Azərbaycanla Türkiyə arasında dünya miqyasında görünməmiş dostluq, qardaşlıq, tərəfdaşlıq və həmrəylik münasibətləri Şuşada bir daha dosta da, düşmənə də göstərildi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışı isə bir çox aspektdən mühüm əhəmiyyət kəsb edirdi. Ən əsası dövlətimizin başçısı 44 gün ərzində bizi böyük qələbəyə aparan Vətən müharibəsindən Zəfərlə çıxmağımızı təmin edən iqtisadi, hərbi və diplomatik zəminin yaradılmasının önəmini yada saldı.

Ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi Prezident İlham Əliyev üçün hər zaman prioritet olub, ölkəyə rəhbərlik etdiyi ötən dövrdə dövlət büdcəsinin əsas xərcləri məhz hərbi məqsədlər üçün nəzərdə tutulub. Bu illər ərzində güclü hərbi-texniki potensial yarandı, müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirildi və hərbçilərimiz bu texnikadan müharibədə bacarıqla istifadə etdilər.

"Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi",- deyən Prezident İlham Əliyev təsdiq edir ki, iqtisadi müstəqilliyin əldə edilməsi ilə siyasi müstəqilliyimizi qazanmışıq. Yəni torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri vaxtında təmin edilib.

Qarabağla bağlı həqiqətlərin, işğalın, erməni vəhşiliyininin dünya ictimaiyyətinə çatdırılmasının, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin qələbənin qazanılmasında vacib rol oynadığını deyən ölkə başçısı revanşist qüvvələrə də xəbərdarlıq edib: "Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir".

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ

***Vətən müharibəsində əldə edilmiş şanlı Qələbənin birinci ildönümü – Zəfər Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.***

***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbə Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdi. Milli birliyimizi, həmrəyliyimizi, ölkəmizin iqtisadi və hərbi qüdrətini bütün dünyaya göstərdi. Bu birlik dəmir yumruğa çevrilərək düşmənin başını əzdi, onu kapitulyasiya aktını imzalamağa məcbur etdi.***

***Dövlət başçısının əmri ilə əks-hücum əməliyyatlarına cəlb edilmiş Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları Azərbaycan Ordusu ilə birgə Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçın istiqamətlərində döyüşlərdə mərdlik, igidlik və cəsarət göstərdi, qarşıya qoyulmuş bütün tapşırıqları uğurla yerinə yetirdi. Biz Vətən torpağı uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlar ilə, həmçinin sağlamlığını itirən fədakar döyüşçülərimizlə fəxr edirik.***



***Qoşunların Vətən müharibəsindəki döyüş yolu Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək yüzlərlə hərbçimiz orden və medallarla təltif edildi, 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü.***

***Bu əlamətdar və tarixi gündə Sizə, habelə şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!***

*Vilayət Eyvazov,*
*Azərbaycan Respublikasının daxili işlər naziri,*
*general-polkovnik*

## TÜRKİYƏDƏN ZƏFƏR TƏBRİKİ

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Zəfər Günü münasibətilə təbrik edib, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzularını çatdırıb. Türkiyə Prezidenti Vətən müharibəsində həlak olmuş şəhidlərimizə Allahdan rəhmət diləyib.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev bu Qələbənin qazanılmasında Türkiyənin və şəxsən Rəcəb Tayyib Ərdoğanın dəstəyini bir daha yüksək qiymətləndirərək, xüsusi olaraq vurğulayıb ki, məhz müharibənin ilk günlərindən Türkiyə Prezidentinin qətiyyətli mövqeyi və bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bütün bunlar xalqımıza və Ordumuza böyük mənəvi dəstək oldu.

Dövlət başçıları Qələbənin Azərbaycan-Türkiyə qardaşlığı və birliyinin növbəti bir parlaq səhifəsi olduğunu qeyd ediblər.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcəkdə də bütün sahələrdə uğurla inkişaf edəcəyinə, Azərbaycan ilə Türkiyənin daim bir-birinin yanında olacaqlarına əminlik ifadə edilib.



# ŞƏHİDİMİZİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİB

**Vətən müharibəsində şəhid olan DİN Daxili Qoşunların hərbi qulluqçusu, çavuş Elşən Quluzadənin xatirəsinə bulağın açılışı olub.**

Füzuli rayonunun Qarabağ kəndində istifadəyə verilən bulağın açılış mərasimində Daxili İşlər Nazirliyinin əməkdaşları, İcra Hakimiyyətinin rəhbərliyi, Daxili Qoşunların hərbçiləri, ictimaiyyət nümayəndələri və şəhidin yaxınları iştirak ediblər.

Bulağın önünə gül-çiçək dəstələri düzən mərasim iştirakçıları şəhidimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra şəhidin təltif olunduğu medallar ailə üzvlərinə təqdim edilib.

Tədbirdə çıxış edənlər 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən danışıblar. Qeyd olunub ki, şəhid hərbi qulluqçu, çavuş E.Quluzadə Cəbrayıl, Hadrut qəsəbəsi və Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib.

Oktyabrın 13-də Füzuli istiqamətində gedən döyüşlər zamanı ağır yaralanaraq tibb müəssisəsinə yerləşdirilib və 2021-ci il yanvarın 21-də şəhid olub.

Elşən Quluzadə hələ sağlığında dövlət başçısının müvafiq sərəncamları ilə "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə, ölümündən sonra isə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# QƏHRƏMANLIQ DASTANINI YAZANLAR



Daxili İşlər Nazirliyinin, Cəlilabad, eləcə də Masallı Rayon Polis Şöbələrinin əməkdaşları DİN Daxili Qoşunların altı şəhid hərbi qulluqçusunun - Fərid Hüseynovun, Mirsəfa Mirəşrəfbəylinin, Elnur Bağırovun, Ayaz Abasovun, Ramazan Vəliyevin və Cavad İbadovun təltif olunduqları orden və medalları ailə üzvlərinə təqdim ediblər.



Kiçik gizir
Anar Məmmədov



Baş çavuş
Fərid Hüseynov



Baş çavuş
Elçin Nadirov



Çavuş
Abbas Şahbazov

*Tarixə 44 günlük savaş kimi düşən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunların hərbi qulluqçularının təltif olunduqları orden və medalların ailə üzvlərinə təqdim olunması tədbirləri davam etdirilir.*

Görüşlərdə şəhidlərimizin əziz xatirəsinin daim yaşayacağı qeyd edilib.

Şəki şəhərində şəhid hərbi qulluqçular - Elçin Nadirovun, Sənan Ələsgərzadənin və Ruslan Sadıqovun ailə üzvləri ilə görüş keçirilib.

Şəhər-Rayon Polis Şöbəsində baş tutan görüşdə DİN-in Nəqliyyatda Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov çıxış edib. Şəhidlərimizin Vətən müharibəsindəki şücaətindən, keçdikləri şərəfli döyüş yolundan söz açan Baş İdarə rəisi onların ailələrinin qayğıları ilə də maraqlanıb.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" Elçin Nadirovun, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" Sənan Ələsgərzadənin, eləcə də "Vətən uğrunda" və "Şuşanın azad olunması görə" Ruslan Sadıqovun təltif olunduqları medallar ailələrinə təqdim edilib.

Noyabrın 4-də DİN-in təmsilçiləri, Saatlı Rayon İcra Hakimiyyətinin və RPŞ-nin rəhbərliyi şəhid hərbi qulluqçu Anar Məmmədovun ailəsini ziyarət ediblər.

Şəhidin əziz xatirəsi anılıb, keçdiyi döyüş yolu xatırlanıb.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə hərbi qulluqçu Anar Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

İmişli rayonunda da şəhid hərbi qulluqçu Abas Şahbazovun ailəsinə baş çəkilib.

DİN-in, İmişli Rayon İcra Hakimiyyətinin və RPŞ-nin nümayəndələrinin iştirak etdiyi görüşdə Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə şəhid hərbi qulluqçu Abas Şahbazovun ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" təltif olunduğu medallar ailəsinə təqdim edilib.

DİN-in, Astara Rayon Polis Şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları şəhid Orxan Babayevin ailəsini ziyarət edib, onun təltif olunduğu "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medallarını ailə üzvlərinə təqdim ediblər.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

*"Polis"*

# EHTİRAM HİSSİ İLƏ...

## Şəhid və qazi ailələri ziyarət olunub

"8 noyabr-Zəfər Günü" münasibətilə paytaxtda və yerlərdə bir sıra silsilə tədbirlər keçirilib.



**Zərdab Rayon Polis Şöbəsinin** əməkdaşları Vətən müharibəsi qaziləri ilə görüşüblər. RPŞ-də baş tutan görüşdə rəis, polis polkovnik-leytenantı Azər Əfəndiyev qaziləri möhtəşəm Zəfərimiz, tarixi qələbəmiz münasibəti ilə təbrik edərək onlara ən xoş arzularını çatdırıb. Bildirilib ki, Vətən müharibəsində qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız düşməndən azad olunub.





"Zəfər Günü" ilə əlaqədar **Oğuz Rayon Polis Şöbəsinin** şəxsi heyəti Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər.

Əvvəlcə rayonun Şəhidlər Xiyabanında torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən mərd mübarizlərin əziz xatirələri dərin ehtiramla yad edilib, ruhlarına dualar oxunub.

Həmçinin, şəhidlərin keçdikləri şərəfli döyüş yolları xatırlanıb, onların əziz xatirələrinin hər zaman xalqımızın yaddaşında yaşayacağı vurğulanıb.

**Ağcabədi rayonunda** da "Zəfər Günü" münasibətilə tədbir keçirilib. RPŞ-nin əməkdaşları şəhid ailələrinə baş çəkiblər. Görüşlərdə şəhidlərimizin qəhrəmanlıq dolu döyüş yolu xatırlanıb, hər birinin göstərdiyi ayrı-ayrı igidlikdən bəhs olunub. Polis əməkdaşları onları bir daha möhtəşəm qələbə münasibətilə təbrik edərək qayğı ilə maraqlanıblar.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# ZABİTLƏRİN TOPLANTISI

## Sloveniyada kütləvi idman tədbirləri zamanı polisin fəaliyyəti müzakirə olunub

**Kütləvi idman tədbirlərində təhlükəsizlik məsələlərinin təmin olunması məqsədilə beynəlxalq görüşlərin keçirilməsi və müzakirələrin aparılması olduqca zəruridir. Azərbaycan DİN-in nümayəndə heyəti də xarici ölkələrdə təşkil edilən görüşlərdə, mötəbər tədbirlərdə iştirak edir. Bu tədbirlər həmçinin təcrübə mübadiləsinə və beynəlxalq əməkdaşlığın genişlənməsinə töhfə verir.**

Noyabrın 8-9 tarixlərində Sloveniyanın Lyublyana şəhərində Futbol Təhlükəsizliyi üzrə Avropa Ekspertlər Qrupunun keçirdiyi növbəti görüş bu baxımdan əlamətdar olub.

***Tədbirdə iştirak etmək üçün DİN Baş İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovniki Yusif Yaqubov və Beynəlxalq Əməkdaşlıq İdarəsinin baş inspektor-tərcüməçisi, polis kapitanı Vaqif Əzizov Sloveniyaya ezam olunublar.***




V.Əzizovdan aldığımız məlumata görə, görüş idman tədbirləri zamanı polisin fəaliyyəti, xüsusən də futbol matçları ilə əlaqədar aktual vacib məsələlərə həsr olunub. Bundan başqa, Milli Futbol Məlumat Məntəqəsinin əlaqələndirici zabitlərinin iştirakı ilə AVRO-2020 zamanı görülmüş tədbirlər, 2022-ci il Qətərdə keçiriləcək Futbol üzrə Dünya Çempionatı, Almaniyada keçiriləcək AVRO-2024 və digər vacib məsələlər müzakirə olunub.

Xatırladaq ki, futbol üzrə Avropa çempionatının yarışlara ev sahibliyi edəcək ölkələrdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, fəaliyyətin birgə əlaqələndirilməsi məqsədilə Haaqa şəhərində AVROPOL-un mənzil-qərargahında Beynəlxalq Polis Əməkdaşlığı Mərkəzi yaradılıb. Mərkəzin Azərbaycanla əlaqələri DİN-in tərkibində yaradılmış Milli Futbol Məlumat Məntəqəsi üzərindən təmin edilir. Polis kapitanı V.Əzizov 2018-ci ildən Məlumat Məntəqəsinin əlaqələndirici şəxsi təyin olunub.

*R.Mehtiyev*

# "ZƏFƏR GÜNÜ"nün AĞACLARI



**Biləsuvar Rayon Polis Şöbəsinin** əməkdaşları "Zəfər Günü" münasibətilə xüsusi ayrılmış ərazidə rayonun iqlim şəraitinə uyğun olan 100-dən artıq ağac əkiblər. Əkilən ağaclar suvarılıb və küləkdən qorunması üçün dirəklər basdırılıb.

Şöbədən "Polis"ə bildirilib ki, ətraf mühitin qorunması, ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində RPŞ-nin şəxsi heyəti səylərini bundan sonra da davam etdirəcəkdir.

*Məhəmməd Rzayev,*
*polis baş leytenantı*

# AKADEMİYADA ZƏFƏR GÜNÜ

## DİN-in Polis Akademiyasında silsilə tədbirlər keçirilib

***Noyabrın 8-də "Zəfər Günü" ilə bağlı keçirilən mərasim ulu öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda canlarından keçmiş şəhidlərin və polis əməkdaşlarının xatirəsinin anılması ilə başlayıb.***

Akademiyanın rəisi, polis polkovniki Canpolad Daanov bu əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik edərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etməsi, 44 gün sürən hərbi əməliyyatlar nəticəsində işğal altında olan torpaqlarımızın azad edilməsi barədə ətraflı məlumat verib.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhərinin işğaldan azad edildiyini qeyd edən polis polkovniki bu faktın dünya hərb tarixinə düşən unikal hərbi əməliyyatlardan olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Tədbirin yekununda şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.







### Qazilərlə kursantlar görüşüb

"Zəfər Günü" ilə bağlı ali təhsil ocağında Vətən Müharibəsinin qazilərilə də görüş keçirilib.

Tədbirdə ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Daha sonra Akademiyaya dəvət olunan DİN Daxili Qoşunlarının zabit və gizir heyəti, qazilər kursantlar qarşısında çıxış ediblər. Qazilərimiz Müzəffər Ordumuzun müharibədə göstərdiyi şücaət və rəşadətini əks etdirən tarixi anları, xatirələrini bölüşüblər. Qeyd olunub ki, Vətən müharibəsi dövründə Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşmiş xalqımızın fədakarlığı sayəsində torpaqlarımız işğaldan azad olundu.

Tədbirdə kursantlar torpaqlarımızın azad olunmasında canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, güc və qüvvət diləyiblər.

### And içdilər

Bugünlərdə Polis Akademiyasında ixtisasartırma fakültəsində "İlkin hazırlıq" kursunu bitirmiş əməkdaşların "Andiçmə" mərasimi keçirilib.

Mərasimi giriş sözü ilə açan Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov dinləyiciləri kursu bitirmələri münasibəti ilə təbrik edərək, onlara gələcək xidməti fəaliyyətlərində əldə etdikləri nəzəri biliklərin tətbiqi sahəsində uğurlar arzulayıb və hər birinə daxili işlər orqanlarında layiqli xidmət etmələrini tövsiyə edib.

Çıxışında təhsildə aparılan innovativ islahatlara toxunan Akademiya rəisi bu kursda da mütəmadi aralıq yoxlamaların keçirilməsi, eyni zamanda, daxili işlər orqanlarının ayrı-ayrı xidmət sahələrini tənzimləyən normativ-hüquqi aktların öyrənilməsinin daima diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Sonra kursu əla qiymətlərlə başa vurmuş polis leytenantları Bəkir Eyvazlıya, Pərvin Rüstəmova, Səməndər İsmayılova, Mahir Hacıyevə, Xəlil Sadiqova və Dəyanət Ağasəfliyə sertifikatlar təqdim edilib.

Məzunlar adından çıxış edən polis leytenantı Tural Qafarov təhsil aldıqları müddətdə onlara yaradılmış şəraitə görə Daxili İşlər Nazirliyi və Akademiya rəhbərliyinə öz minnətdarlığını bildirib.

*"Polis"*

# Uşaqların Zəfər coşqusu

**Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin 2 və 3 saylı uşaq bağçalarında "8 Noyabr-Zəfər Günü"nə, o cümlədən "Bayraq Günü"nə həsr olunmuş bayram tədbirləri keçirilib. Tədbirlərdə DİN əməkdaşları da iştirak ediblər.**






DİN 2 saylı bağçanın müdiri Sevinc Məmmədəliyeva uşaqdan-böyüyə hər kəsə sevinc və qürur hissi yaşadan, tariximizə qızıl hərflərlə yazılan "Zəfər Günü" münasibətilə iştirakçıları təbrik edərək, onları salamlayıb.

"Ey Vətən" mahnısının sədaları altında zala daxil olan körpələr Dövlət Himnini ifa etdikdən sonra Zəfər coşqulu şeirlər söyləyiblər. Səhnəciklərdəki aktyorluq qabiliyyətləri ilə hər kəsi heyran edən Emilyanın, Yunisin, Kamillanın və Əlikramın dialoqları tədbiri daha yaddaqalan edib.

Sonra "Xarı bülbül" musiqisinin sədası altında rəqs edən fidanlarımız Azərbaycan Bayrağını səhnədə dalğalandırıblar.

3 saylı uşaq bağçasında da Zəfər bayramı balacaların Dövlət Himnini ifa etməsilə başlayıb. Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra bağçanın müəllimələri - Hicran Yusifova və Gülşən Panayeva Şuşanın azad edilməsi ilə tariximizə Zəfər günü kimi düşən böyük qələbənin əhəmiyyəti barədə danışıblar. Qeyd edilib ki, qəhrəman oğullarımızın sayəsində ölkəmiz ermənilərin xalqımıza qarşı həyata keçirdiyi işğalçılıq əməllərinə 44 gündə son qoyaraq əzmkar, qalib xalq və millət adını özünə qaytardı.

Balacalar Vətənə, igid oğullarımıza, şəhidlərə həsr edilmiş şeirlər söyləyib, bağçanın müəlliməsi Təbəs Əmiraslanovanın quruluş verdiyi səhnəcikləri nümayiş etdiriblər. Sonda şəhidlərin fotolarını başları üzərinə qaldıran uşaqlar "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər.

***P.S. Qarabağ uğrunda vuruşub zəfər qazanan qəhrəman hərbçilərimiz də bağçalarda, məktəblərdə aşılanan Vətən eşqi ilə böyümüşdülər. Çox güman, onlar o zaman işğal tarixini qeyd ediblər və hər dəfə hərbi marş sədaları altında addımlayıb, qisas ruhu ilə boy atıblar. Hansı ki, bizi məhz o kiçik addımlar bu böyük Zəfərə qovuşdurdu. Bu gün körpələr evində marş sədaları altında addımlayan Aras, Əli, Hüseyn, Ayan kimi balaların kiçik addımları da, heç şübhəsiz ki, bizi parlaq gələcəyə aparacaqdır.***

*Teymur Əlizadə,*
*Rəşad Mehtiyev*

# Şəhidlərimizin ailələri unudulmur

Zəfər Günü ərəfəsində qələbənin qazanılması uğrunda canlarından keçən Daxili Qoşunların hərbi qulluqçularının ailələrini ictimaiyyət nümayəndələri də ziyarət ediblər. Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın sədri Əliməmməd Nuriyev, sədr müavini Mahirə Əmirhüseynova və şura üzvləri şəhidlərimizin ailə üzvlərinə baş çəkiblər.

İctimai Şuradan "Polis" qəzetinə bildirilib ki, görüşlərdə Vətən Müharibəsində qəhrəmanlıq göstərən Hilal İmanzadə, Tural Abdullayev və Tofiq Həsənovun ailə üzvləri şəhid övladlarının döyüş yolundan, ölkəmizin təhlükəsizliyi üçün xidmətlərindən danışıblar. Ziyarət zamanı şəhid valideynlərinin evlərində şəhidlərimizə aid yaratdıqları kiçik muzeylər də ziyarət edilib.

# Bir il ərzində...

**Azadlığına qovuşan Şuşada yeni dövrün təməli qoyulur. Əsrlərin yaşıdı olan bu şəhərdə daşı-daş üstünə qoymaqla biz həm də gələcəyimizi inşa edirik.**

Reallığa çevrilən arzular daha böyük hədəflərə çatmağımıza qol-qanad verir. Ötən ilin sentyabrın 27-dən bütün yollar bizi Şuşaya aparırdı. Artıq Şuşadayıq. Şuşadan başlanğıcını götürən yollar isə bizi böyük Azərbaycana, tarixi yurdlarımızda varlığımızı bəyan etməyə doğru aparır.

Şuşanın təhlükəsizliyi bu gün əmin əllərdədir. Və bu istiqamətdə çoxşaxəli tədbirlər bir an belə olsun səngimir. Rayon Polis Şöbəsinin əməkdaşları təhlükəsizliyin və asayişin təmin edilməsi məqsədi ilə müvafiq nəzarət-profilaktik tədbirlər keçirirlər.

Qeyd edək ki, son bir il ərzində Şöbənin əməkdaşlarının və aidiyyəti qurumların iştirakı ilə erməni hərbi birləşmələrinin şəhər ərazisində atıb qaçmağa məcbur olduğu xeyli sayda kiçik və iriçaplı silahlar, partlayıcı maddələr və digər sursatlar aşkarlanıb. Şəhər ərazisindən və ətraf kəndlərdən 5 mina, 31 avtomat, 4 pulemyot, 6 qumbaraatan, 207 qumbara və digər partlayıcı maddələr, 78 müxtəlif növ mərmi, 19 "Foqot" və digər idarə olunan raket sistemləri, 45 mindən artıq müxtəlif çaplı patronlar və başqa sursatlar aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.




Bundan başqa, Daşaltı kəndində yabanı halda bitən və çəkisi 1 ton 600 kiloqramdan artıq olan 2437 ədəd çətənə kolu məhv edilib.

*Aslan Qıyaslı,*
*polis baş leytenantı*

# POLİSLƏR ŞAGİRDLƏRİ MAARİFLƏNDİRİR

**Bərdə Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 6 saylı tam orta məktəbdə narkomaniyanın fəsadlarından bəhs edən maarifləndirmə tədbiri keçirilib. Karantin tələbləri nəzərə alınmaqla baş tutan tədbirdə məktəbin müəllim və şagird kollektivi iştirak edib.**



Tədbirdə çıxış edən RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Əflatun Məmmədov narkotik vasitələrin insan orqanizmində yaratdığı problemlər, törətdiyi fəsadlar və hüquq pozuntuları ilə bağlı şagirdlərə geniş məlumat verib. Qeyd edib ki, "ağ ölüm" sayılan bu bəla ilk növbədə ailənin, daha sonra cəmiyyətin nizamını sıradan çıxarır.



Digər çıxışçılar narkomaniyanın yayılmasının qarşısının alınması məqsədilə təhsil işçiləri və valideynlərin hüquq mühafizə orqanları ilə birgə mübarizə aparmalarının əhəmiyyətinə toxunublar. Narkotik vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olanların, istifadə edənlərin, eləcə də bu maddələrin təsiri altında cinayət törədənlərin məsuliyyətdən yayına bilmədiyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Şagirdlərə dərslərinə ciddi yanaşmaları, cəmiyyətimiz üçün faydalı işlər görmələri tövsiyə olunub.

*"Polis"*

# "Peşəkar" ələ keçdi

**Sabunçu Rayon Polis İdarəsinə** Bakıxanov qəsəbəsindəki kafelərdən birinin qarşısından vətəndaş İslam Bağırova məxsus "KİA Sportage" markalı avtomobilin oğurlanması barədə müraciət daxil olub. Məlumatla əlaqədar Rayon Polis İdarəsinin Cinayət-Axtarışı Şöbəsi əməkdaşları-baş əməliyyat müvəkkili, polis kapitanı Bəxtiyar Abbasovdan, əməliyyat müvəkkili, polis baş leytenantı Əli Abdullayevdən ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Hadisə yerinə baxış keçirilib və zəruri əməliyyat-istintaq hərəkətlərindən sonra oğurluğu törətməkdə şübhəli bilinən Suraxanı rayon ərazisindəki Yeni



boru təmir zavodunda məskunlaşmış Fuad Sahibli saxlanılıb.

Müəyyən olunub ki, Fuad asayiş keşikçilərini yayındırmaq, eləcə də izi itirmək məqsədilə oğurladığı avtomobili hissələrə ayıraraq satmaq istəyib. Ancaq polis əməkdaşlarının operativliyi, yüksək peşəkarlığı, o cümlədən Təhlükəsiz Şəhər Xidmətinin texniki imkanları sayəsində yaxasını ələ verib.

Onun evinə baxış zamanı "KİA Sportage" markalı avtomobilə məxsus yan güzgülər, qabaq işıq cihazları maddi sübut kimi götürülüb. İdarə əməkdaşları sözügedən avtomobili işlək vəziyyətdə sahibinə təhvil veriblər.

Əməliyyat tədbirləri ilə o da bəlli olub ki, F.Sahibli Sabunçu rayonunda daha bir "Toyota Prius" markalı avtomobili eyni üsulla oğurlayıb.

Faktlarla bağlı RPİ İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# GECİKMİŞ ETİRAF...

## Sonrakı peşmançılıq və intihar



**1986-1994-cü illər ərzində 1 uşağı və 4 qadını öldürən seriyalı qatilin kimliyi Paris prokuroru Laure Bekkauanun səyi nəticəsində 35 il sonra ortaya çıxıb.**

Belə ki, şəhər prokuroru həmin illərdə xidmət edən 750 jandarmadan DNA testinin götürülməsini istəyib. Bu zaman əvvəllər jandarma, daha sonra polis kimi xidmət edən və buradan da təqaüdə çıxan 59 yaşlı François Verove test verikdən sonra bu ilin sentyabrın 24-də yoxa çıxıb. Üç gün sonra arvadı Françoisin itkin düşməsi barədə polisə məlumat verib.

Polis Verovenin izini balıqçı kəndi olan Qrau-du-Roidə tapıb. Evə daxil olan polis əməkdaşları onun cansız bədənini aşkar ediblər. İntihar etdiyi məlum olub.

François Verove intihardan əvvəl yazdığı məktubda, əslində illərdir axtarılan seriyalı qatilin özü olduğunu etiraf edib. O, məktubda yazıb: "Bu cinayətləri işlədiyim vaxt həyatım yaxşı deyildi. Sonradan özümü toparladım. 1997-ci ildən sonra heç nə etmədim".

Cinayət qurbanlarının üzərindən götürülən nümunələrlə Verovenin DNA testi də uyğun gəlib. Polis seriyalı qatilin 1997-ci ildə hansı cinayəti işlədiyini araşdırmağa başlayıb.

Yeri gəlmişkən, "Serial killer" (Seriyal qatil) termini ilk dəfə Ted Bandinin məhkəməsində işlədilib. Bandi 36 nəfəri öldürməkdə ittiham olunaraq elektrik stulunda edam edilib.

*R.Əliyeva*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nəsimi RPİ 19-cu PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini N.Rəhimzadənin mobil telefonunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən paytaxt sakini K.Hüseynov saxlanılmış, digər bir nəferin isə şəxsiyyəti müəyyən edilmişdir.

◆◆◆

**Qaradağ RPİ 11-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində noyabrın 4-də Qobustan qəsəbə sakini olan bir kişinin şəkillərini sosial şəbəkələrdə yayacağı ilə hədələyib 400 manat pulunu almaqda şübhəli bilinən Bakı şəhər sakini O.Şəkərov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 1-də Liman şəhəri ərazisində yerləşən yanacaqdoldurma məntəqəsinə gələrək orada işləyən V.Əliyevdən hədə-qorxu və tələb etmə yolu ilə 350 manatı almaqda şübhəli bilinən Daşdatük kənd sakini T.Şəfəqqətov saxlanılmışdır. Ətrafında aparılan tədbirlərlə onun oktyabrın 7-də Girdəni kəndi ərazisindəki yanacaqdoldurma məntəqəsində operator işləyən A.Kərimovdan quldurluq yolu ilə pul tələb edərək ona bıçaqla xəsarət yetirməsi də müəyyən edilmişdir.

◆◆◆

**Cəlilabad RPŞ və DTX** əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Ləkin kənd sakini N.İmanov saxlanılmışdır. Davam etdirilən tədbirlərlə onun yaşadığı evə baxış zamanı oradan heroin, metamfetamin, nömrəsi silinmiş "Makarov" markalı tapança, patron darağı, 2 ədəd patron və 2 ədəd gecəgörmə cihazı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Quba RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ayrı-ayrı şəxslərə məxsus ümumilikdə 2 baş inəyi və 7 baş keçini oğurlamaqda şübhəli bilinən Rustov kənd sakini, əvvəllər məhkum olunmuş E.Maxsudov və Zərdabi qəsəbə sakini T.Ağamirzəyev saxlanılmışlar.

◆◆◆

**Qazax RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Aslanbəyli kənd sakini T.Yaqubovdan lülesi kəsilmiş "Karabin" markalı tüfəng və 14 ədəd patron götürülmüşdür.

◆◆◆

**Xaçmaz RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində noyabrın 3-də şəhər sakini İ.Bayramovu döyərək mobil telefonunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən Qaraqurtlu kənd sakini, əvvəllər məhkum olunmuş N.Mirzəmmədov saxlanılmışdır. Araşdırma aparılır.

# ÜMİD RƏQƏMLƏRİ

Bu dəfə də çarpayının altında gizləndi. Səslər get-gedə daha da şiddətlənirdi. Ən çox qorxduğu bu deyildi. Anası ağladıqca kömək edə bilmədiyi üçün qəhər onu boğurdu. Atalığının kəmərlə göyərtdiyi yerlərin ağrısı bir yana, açıq qapıdan dəhlizdə anasının yerdə qıvrıldığını gördükcə çarəsizliyin nə qədər qəddar olduğunu başa düşürdü. Səsi eşidilməsin deyə xısın-xısın ağlayırdı.

Fikirləşirdi ki, gör indi anası necə ağrıyır. İçindəki bir zərrə ümidlə çarpayının altında qulaqlarını qapıya şəkləmişdi.

Amma evdəki kədərli mənzərənin qaranlığı qonşulardan heç kimin gözünü qaraltmırdı. Hər dəfə atalığı evdə dava salanda səsə qonum-qonşu yığılardı. Hətta bir dəfə yaşadıqları yataqxanada onlardan bir mərtəbə aşağıda yaşayan Mehman Musanın boğazından yapışıb and içmişdi ki, bir də səsi çıxsa, "102"-yə zəng edəcək. Mehmanın anası oğlunun əlindən Musanı güclə almışdı. Musaya da bərk təpinmişdi: "Onu istəyirsən, balamın əlindən xəta çıxsın? Yeniyetmə uşaqdı, beyni qandı".

Musa da bir neçə müddət öz gücünü evdə göstərməmişdi.

O gündən sonra Aysel Mehmana çarəsizliyinin arxasından boylanan xilaskarı kimi baxmışdı. Mehman əsgərliyə gedəndən sonra isə Ayselin ümidləri tükənmişdi. Həsrətlə onun hərbi xidmətdən gələcəyi günü gözləmişdi...

Nailənin döyülməyinə bütün yataqxana səssiz qalırdı. Qonşuların da bu səssizliyi əbəs deyildi. Çünki o, Musanı hər dəfə bağışlayırdı. Qonşular da bir söz deyəndə: "Hər ailədə söz-söhbət olar, gedin, işinizlə məşğul olun",- deyirdi. Nailə elə düşünürdü ki, Musa onu bir övladla qəbul edibsə, onun verdiyi hər əzaba dözməlidir.

Ayselin atası o, doğulmamış dünyasını dəyişmişdi. Nailə 2-ci dəfə ərə gedəndə Ayselin 3 yaşı var idi. Əvvəllər hər şey yaxşı idi, ta ki Musa içkiyə qurşanana qədər. Sonralar atalığının havada yellənən yumruqları kimi düşüb qırılmışdı sevinci. Dəfələrlə anasının səhərə qədər ağladığının şahidi olmuşdu...

Saçları Musanın əlində qalan Nailənin gözləri Ayselin ona çarəsizliklə zillənən gözlərinə sataşdı. Onun baxışlarının səsi bayaqdan bəri yataqxananı silkələyən Musanın nəriltisindən, səs-küyündən daha şiddətli idi. Nailə güclə Musanın əlindın çıxıb qapını bağladı. Ayselin baxışlarının səsi qapının bu üzündə kəsildi. Çarpayının altından çıxıb pəncərəyə tərəf qaçdı. Həyətdə heç kəs yox idi. Gözləri telefona sataşanda Mehmanın Musanı hədələdiyi və o gün ona ümid olan rəqəmlər düşdü yadına. Dodaqlarının altından "102" deyə pıçıldadı.

Ertəsi gün bütün qəzet başlıqlarında, manşetlərdə 7 yaşlı qızın "Ümid rəqəmləri"nə-"102"-yə pıçıldadığı söz bütün çarəsizlərin fəryadına çevrildi: "Anamı xilas edin"...

*Günay Ümid*

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Noyabrın 3-dən 9-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 19 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 3 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

## Noyabr ayının 3-dən 9-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 295 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 65 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 328, o cümlədən borclu şəxs qismində axtarışda olan 245 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 7 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 136 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik